**Etibarlı Qan Ehtiyatı**
**Hematologiya və Qan Köçürmə İnstitutunun Təmir edilməsi**
**Ən Kressler**

Mənbə: Azerbaijan İnternational jurnalı - Aİ 9.2 (Yay 2001)
© Azerbaijan İnternational

“Azerbaijan İnternational” jurnalının əməkdaşları üçün nəşr etdiyimiz məqalələrin nəticəsi olaraq uğurlu layihələrin meydana çıxdığını görmək xoşdur. Belə uğurlu hekayələrdən biri 1995-ci ilin qışında çap olunmuşdu (Aİ 3.4). “Azərbaycanda Beta Talasemiya Böhranı” məqaləsi Amerika Birləşmiş Ştatları şirkəti olan “Texaco”nu Bakıda yerləşən Milli Qan Köçürmə İnstitutunu təmir etmək və yeni tibbi ləvazimatla təchiz etmək üçün ora $500000 dəyərində pul qoymağa sövq etdi. Yəqin ki, bu layihədən ən çox qazanan məqalədə haqqında danışılan nadir talasemiya xəstəliyindən əzab çəkən uşaqlardır. Onlara hər 2-4 həftədən bir qan köçürmək lazımdır. Onlar üçün Qan Köçürmə İnstitutu həyat mənbəyidir. Nəhayət ki, təmiz qan ehtiyatı haqda narahatçılıq bitdi.

Talasemiya hemoqlobinin düzgün olmayan sintezi nəticəsində yaranan qan azlığından (anemiya) irsən keçən nadir xəstəlikdir. Bu xəstəliyə ən çox Aralıq Dənizi ətrafının əhalisində rast gəlinir. Azərbaycanda belə çatışmazlığı olan uşaqların sayı qeyri-mütənasib halda çoxdur. Təkcə Bakıda təqribən 2000 uşağa ayda iki dəfə qan köçürmək lazımdır. Verilən qanın yarıdan çoxu talasemiya xəstəliyi olan uşaqlara gedir.

1997-ci ildə “Texaco” şirkəti Azerbaijan İnternational jurnalının redaktoru Betti Bleyerdən xidmət sahəsinə onların məşğul ola biləcək bir layihəni göstərməyi xahiş etdi. Bu elə bir layihə olmalı idi ki, Azərbaycan cəmiyyəti ondan xeyir əldə edə bilsin. Elə bu vaxt Hematologiya və Qan Köçürmə İnstitutu ideyası yarandı.

Lakin Qan Köçürmə İnstitutu yenidən canlanardısa xeyir əldə edəcək təkcə talasemiya xəstəlikli uşaqlar olmayacaqdı. Həmçinin xroniki qan xəstəlikləri olan hemofiliya və leykemiya kimi xəstəliklər də mövcud idi. Üstəlik xərçəng və digər xəstəliklər, doğuş zamanı analar və travma və həyat üçün təhlükəli olan digər bədbəxt hadisələr və ya milli böhran zamanı yaralananlar da var idi. Qan Köçürmə İnstitutu yenidən fəaliyyət göstərsə idi demək olar ki, ölkədə hər bir insan ondan faydalana bilərdi.

“Texaco” şirkətinin rəhbərliyi qərara aldı ki, bu fikir diqqətə layiq bir fikirdir. Onlar prezident Heydər Əliyevin razılığı olduğu təqdirdə bu işlə məşğul olmaq fikrini çox yaxşı qarşıladılar. “Sözün düzü, prezidenti bu layihəni təsdiq etməyə inandırmaq o qədər də çətin deyildi. O, tibbi ləvazimatın əsasən 1991-ci ildə Sovet İttifaqı dağıldıqdan sonra pis vəziyyətdə olduğunu bilirdi,”—deyərək Bleyer xatırlayır.

Bir az sonra “Texaco” hematologiya sahəsində dünyanın ən aparıcı ekspertlərindən olan Los Ancelesli doktor Tom Drisin Bakıya gəlib, institutun əməkdaşları ilə görüşərək onların ehtiyacları haqda söhbət etməsinə nail oldu. Bundan sonra “Relief İnternational” (Rİ) humanitar təşkilatına binanı təmir etmək və tibbi ləvazimatı və təchizatı əldə etmək tapşırıldı.

İndi Hemotologiya və Qan Köçürmə İnstitutu hepatit C və eləcə də hepatit B, HİV/AİDS və sifilisi də yoxlayan ən yaxşı cihazlarla fəaliyyət göstərir. HİV/AİDS-in Azərbaycanda nadir olmasına baxmayaraq, hepatis C qan ehtiyatına təhlükə yaradır.

Hemotologiya və Qan Köçürmə İnstitutunun direktoru doktor Azər Kərimov deyir: “İndi əhali bilir ki, buradakı qan təhlükəsizdir. Bina cəlbedici olduqdan sonra donor olmaq obrazı və hörməti də artıb. İnstitutumuz Azərbaycanın bütün təbabət sahəsi üçün çox vacibdir. Və indi qanın təhlükəsizliyi və keyfiyyəti təmin olunub. İnstitumuzda xəstələrə təqdim edə biləcəyimiz xidməti yaxşılaşdırmaq imkanı əldə etməyimiz Azərbaycanda təbabətin digər sahələri üçün müsbət nümunə ola bilər.”

Hematologiya və Qan Köçürmə İnstitutu Bakıda Mirəli Qaşqay küçəsi 87-də yerləşir. Tel: (994-12) 40-51-01. Qan donorlarını qəbul etməyə hər zaman şadıq.

---

Tərcümə: Gülnar Aydəmirova
Veb üçün hazırlayan: Arzu Ağayeva